# Hüquqlar haqqında Bill


Congress of the United States,
begun and held at the City of New-York, on
Wednesday the fourth of March, one thousand seven hundred and eighty nine.
THE
RESOLVED
ARTICLES

Konstitusiyaya edilən 10 düzəliş və sonralar Hüquqlar haqqında Bill adı ilə tanınan bu sənəd Birləşmiş Ştatlar Konqresinin üçdə-iki səs çoxluğu ilə qəbul olunmuş və daha sonra isə ştat qanunvericilərinin lazım olan dörddə-üç səs çoxluğu ilə təsdiq olunmuşdur. *Milli Arxiv*

Birləşmiş Ştatlar Konstitusiyası tərəfindən yaradılmış yeni mərkəzi hökumətin həddən artıq gücə sahib olması ehtimalı bir çox vətəndaşı narahat etdiyi üçün söz, mətbuat, din və digər əsas hüquq və azadlıqların qorunması məqsədilə konstitusiyaya düzəlişlər təklif olundu. Belə düzəlişlərdən onu qəbul olundu və bu gün bunlar Hüquqlar haqqında Bill adı ilə məşhurdur.

## I-ci Düzəliş

(1791-ci il Dekabrın 15-də təsdiq olunmuşdur)

Konqres hər hansı bir din müəssisəsinə hörmətlə yanaşan və yaxud dini ibadət sərbəstliyini yasaqlamağa yönəlmiş, həmçinin söz və mətbuat azadlığını,xalqın dinc toplaşmaq və şikayətlərinin aradan qaldırılması üçün hökumətə sorğu etmək hüququnu məhdudlaşdıran heç bir qanun verməyəcək.

## II-ci Düzəliş

(1791-ci il Dekabrın 15-də təsdiq olunmuşdur)

Azad dövlətin təhlükəsizliyi üçün nizamlı silahlı dəstənin zəruriliyi nəzərdə tutularaq insanların silah saxlamaq və gəzdirmək hüququ pozulmayacaq.

## III-cü Düzəliş

(1791-ci il Dekabrın 15-də təsdiq olunmuşdur)

Heç bir əsgərə ev sahibinin icazəsi olmadan istər sülh, istərsə də qanunla nəzərdə tutulmuş formadan kənar müharibə zamanı sığınacaq verilməyəcək.

## IV-cü Düzəliş

(1791-ci il Dekabrın 15-də təsdiq olunmuşdur)

Səbəbsiz axtarış və müsadirələrə qarşı insanların şəxsi həyat, yazılı sənəd, daşınan və daşınmaz əmlakını qorumaq hüquq və toxunulmazlığına qəsd edilməyəcək, axtarılacaq yer, tutulacaq şəxs və ya müsadirə ediləcək əşya xüsusilə göstərilməklə, and və ya təsdiqə əsaslanan böyük ehtimal səbəbi olan hallardan başqa heç bir axtarışa icazə verilməyəcək.

## V-ci Düzəliş

(1791-ci il Dekabrın 15-də təsdiq olunmuşdur)

Heç bir kəs ictimai təhlükə və ya müharibə zamanı, quru qoşunlarında, hərbi dəniz qüvvələrində və ya silahlı dəstədə

həqiqi xidmətdən qaynaqlanan hallar istisna olmaqla, Böyük Jürinin ittiham aktı və ya bəyanatı olmadan ağır və ya xırda cinayətlər üçün sorğu-sual olunmayacaq. Heç kəs eyni bir cinayətə görə iki dəfə cinayət məsuliyyətinə cəlb olunmayacaq, heç bir cinayət işində özünə qarşı ifadə verməyə məcbur edilməyəcək, xüsusi qanuni prosesə əməl olunmadan həyat, azadlıq və mülkiyyətdən məhrum edilməyəcək, nə də ədalətli kompensasiya olmadan heç kimin şəxsi mülkiyyəti ictimai istifadə üçün əlindən alınmayacaq.

## VI-cı Düzəliş

(1791-ci il Dekabrın 15-də təsdiq olunmuşdur)

Bütün cinayət işlərində ittiham olunan tərəfin ştat və cinayətin törədildiyi və qanunla qabaqcadan təsbit olunmuş ərazinin bitərəf jürisinin iştirakı ilə keçiriləcək sürətli və dövlət məhkəməsinə çıxış hüququ olacaq. Həmçinin müttəhim ona qarşı irəli sürülən ittihamların təbiəti və səbəbi ilə məlumatlandırılacaq, ona qarşı ifadə verən şahidlərlə üzləşəcək, xeyrinə şahid əldə etmək üçün məcburi proses və müdafiəsinin təşkili üçün isə vəkil yardımı ilə təmin olunacaq.

## VII-ci Düzəliş

(1791-ci il Dekabrın 15-də təsdiq olunmuşdur)

Anqlo-sakson hüquq sisteminə uyğun olaraq mübahisə məbləğinin iyirmi dolları aşması şərti ilə jüri məhkəməsinin keçirilməsi hüququ saxlanılacaq və jüri üzvlərinin araşdırdığı heç bir fakta Birləşmiş Ştatların heç bir məhkəməsində anqlo-sakson hüquq sisteminin qaydalarından kənar şəkildə yenidən baxılmayacaq.



Nümayəndə Ceyms Madison düzəlişlərin Konqresdə həyata keçməsində və sonra onların doğma Vircinia ştatında təsdiqinə nail olunmasında həlledici rol oynamışdır. ©*AP Şəkillər*



Birləşmiş Ştatlar Senatı düzəlişləri təsdiq edən zaman Konqresin bu qanunverici qoluna sədrliyi Vitse Prezident Con Adams etmişdir. ©*AP Şəkillər*

## VIII-ci Düzəliş

(1791-ci il Dekabrın 15-də təsdiq olunmuşdur)

Hədsiz təminat tələb olunmayacaq, hədsiz cərimələr tətbiq olunmayacaq, qəddar və qeyri-adi cəzalar verilməyəcək.

## IX-cu Düzəliş

(1791-ci il Dekabrın 15-də təsdiq olunmuşdur)

Konstitusiyada sadalanmış müəyyən hüquqlar xalqın sahib olduğu digər hüquqları məhdudlaşdırmaq və ya inkar etmək üçün şərh olunmayacaq.

## X-cu Düzəliş

(1791-ci il dekabrın 15-də təsdiq olunmuşdur)

Konstitusiya ilə Birləşmiş Ştatlara həvalə olunmamış və ya konstitusiya ilə ştatlara qadağan olunmamış səlahiyyətlər əlaqədar ştatlara və ya xalqa məxsusdur.